UOT 32:93/94

NƏRGİZ NAĞIYEVA
siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti
nargiz_nagiyeva@mail.ru

MÜASİR ŞƏRAİTDƏ KOLONİALİZMİN İFADƏ FORMALARI

DOI: https://doi.org/10.36719/2708-065X/105/153-158

Kolonializm siyasi hadisəsi dünya tarixşünaslığında kifayət qədər əsaslı şəkildə araşdırılmış, bu sahədə xeyli sayda monumental, əsaslı nəzəri tədqiqat əsəri yazılmışdır. Bu əsərlərin hamısını sadalamağa ehtiyac olmasa da, E.V.Tarlenin, Vijay Mişra və Bob Hodqenin kolonializmin tarixi və nəzəri əsərləri xüsusi olaraq qeyd edilməlidir. Kolonializm bir siyasi fenomen kimi qədim tarixə malikdir. Bu siyasi və iqtisadi hadisə lap qədim dövrlərdə də dünyanın müxtəlif ərazilərində mövcud olmuş, zamana və məkana görə öz forma və məzmununu dəyişərək bu günə qədər mövcudluğunu davam etdirməkdədir. Qədim Şərqdə, antik dövr, orta əsrlər və intibah dövrlərində Avropada kolonializm müəyyən mənada bəsit (primitiv) səciyyə daşımış, yalnız XVII əsrin əvvəllərindən etibarən, demək olar ki, Qərb dünyasının rəsmi siyasəti şəklinə düşmüşdür.

Açar sözlər: postkolonializm, müstəmləkəçilik, Qərb, modernizm, orientalizm, Edvard Səid.

Giriş. Antik dövrün kolonializmi ilə XVII-XVIII əsrin kolonializmi və ya XX-XXI-ci əsrin kolonializmi ilə eyni deyil. Bununla belə onların kökündə eyni kolonializm siyasəti dayanır. Kolonializm bu gün postkolonial formada özünü büruzə verdi. Mənim mövzum əsas etibarı ilə postkolonializm siyasəti üzərində qurulub. Bu məqamda mən kolonialzmin postkolonializmlə birbaşa əlaqəsini, onlar arasındakı oxşar və fərqli cəhətləri göstərməyə çalışacam. Adından da göründüyü kimi postkolonializm konlonializmdən sonrakı dövrü əhatə edir. Sonrakı kolonializmin özünəməxsus çoxsaylı xüsusiyyətləri mövcuddur və mən bu xüsusiyyətlərin bəzilərinə aydınlıq gətirməyə çalışacam. Hal-hazırda dünyada postkolonial taleyi yaşamayan demək olar ki. ərazi və ya ölkə yoxdur (Buraya həm kolonialist, həm də koloniya ölkələr aiddir). Bu gün postkolonial siyasət ümumdünya siyasi həyatın aktual məqamlarından biridir. Bu gün də dünyada koloniya və postkolonial, neokolonial həyat yaşayan ölkələr mövcuddur. Təsadüfi deyil ki, yaxın günlərdə Azərbaycanın siyasi həyatında postkolonial mövzu dövlət səviyyəsində aktuallaşmış və beynəlxalq səviyyədə konfranslar keçirilmiş, çağırışlar edilmişdir. Çünki, postkolonializm bu gün dünya siyasətinin ən aktual məsələlərindən biridir. Məsələn, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023 oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb. Dövlətimizin başçısı müraciətində Azərbaycanın XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından narahatlığını vurğulayıb, Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyduğunu diqqətə çatdırıb, Fransa kolonializminin utancverici yeni metodlarının bu gün də davam etməsindən təəssüfləndiyini bildirib [8].

XIX əsrin sonu XX əsrin I yarısında əvvəllərində Avropada, Qərbdə incəsənətdə, ədəbiyyatda, fəlsəfədə yeni bir cərəyan - modernizm yarandı. Modernizm ictimai həyatın cəmiyyətin, müxtəlif sahələrini o cümlədən siyasəti əhatə etdi. Artıq 60-70-ci illərdə modernizm öz yerini postmodernizmə verdi. Bu dövrdə klassik kolonializmi də postkolonializmlə əvəz etdi. Postmodernizmlə postkolonializm bir-biri ilə sıx əlaqəlidir. Daha doğrusu postkolonializm postmodernizmin ifadə formalarından biridir. Postkolonializm siyasi hadisəsinin elmi cəhətdən işlənməsi, gündəmə gətirilməsi əsas etibarilə postmodernist mütəfəkkirlərin - filosofların, siyasətçilərin, filoloqların fəaliyyəti sayəsində baş vermişdir. Bu sahədə əhəmiyyətli araşdırmalar aparan, qiymətli elmi-nəzəri əsərlər yazan postmodernist mütəfəkkirlər sırasına Arnold C.Toynbi, Frans Fenon, Mişel Fuko, Edvard Səid, Samuel Handiqton,

Qayati Çakraborti Spivak, Homi K.Bhabha, Paul Gibroy, S.Rüşdi və s. kimi araşdırmaçılar daxildir. Buradan belə bir qənaətə də gəlmək olar ki, postkolonializm bir siyasi sistem olaraq əsas etibarilə postmodernist tendensiyanın təzahür formasıdır.

Poskolonializm postmodernizmin sırf siyasi aspektidir. Belə ki, postmodernizm bir sıra sahələri əhatə edir. Siyasi aspektin özündə də bir çox əlaqəli sahələr var,-mədəni, iqtisadi, gender, ədəbiyyat, sosial. Bütün bu elementlər məhz siyasətə xidmət edir. Postkolonial mədəniyyət və ədəbiyyatda Salman Rüştini (Gecə uşaqları), Vladimir Nabokovun adını çəkmək olar.

Poskolonializm yeni dövrün siyasi hadisəsidir. Yeni dövrün isə yeni tələbləri var. Artıq mövcud klassik kolonializm əvvəlki kimi davam edə bilməzdi. Onu yeni forma əvəz etməli idi və etdi də. Bu yeni forma dünya siyasətində postkolonializm adlandırıldı. Bu da ondan ibarətdir ki, artıq əvvəlki metropol ölkələr özünün müstəmləkəyə çevirdikləri ölkələrdə əvvəlki kimi silah gücünə deyil, başqa yollarla - mədəni, siyasi, iqtisadi əlaqələrlə öz kolonial siyasətini davam etdirirlər. Bu məsələnin bir qədər dərininə getmək istərdim. Postkolonial siyasətin həm metropol həm müstəmləkə ölkəsi üçün qarşılıqlı maraqları yaranır. Yəni hər bir kolonial ölkə kolonializm dövründə öz müstəmləkəsinə çevirdiyi ölkədə öz mədəniyyətini, adət-ənənəsini, psixologiyasını, ideologiyasını, dilini, iqtisadiyyatını, siyasətini tətbiq edir. Bu elemenlər müstəmləkə dövlətlərdə o qədər dərin kök salmış olur ki, müstəmləkəçilik sistemi başa çatdıqdan sonra da həmin ərazilərdə qalmaqda, işləməkdə davam edir. Məsələn, İngiltərənin, Fransanın və s. keçmiş müstəmləkə dövlətlərində hal-hazırda iki dövlət dili vardır, bu dillərdən biri metropol ölkənin dili olur ki, bu da postkolonial siyasətin əsas xüsusiyyətlərindən biridir. Yeri gəlmişkən onu da qeyd edim ki, postkolonial mühitdə metropol xalqla yerli xalq arasında əlaqə yaratmaq üçün pidjin və kreol dilləri icad edilmişdi ki, bu məhz müstəmləkə siyasətinə xas olan bir dil formasıdır. Bu dillərin heç bir qramatik qaydaları olmur sadəcə olaraq yerli, müstəmləkələşdirilmiş xalqla ünsiyyət qura bilmək üçün yaradılmışdır. Beləliklə də, metropol ölkə məhz bu kimi elementlərdən istifadə edərək öz müstəmləkəçilik siyasətini yeni formada davam etdirməyə başlayır, beləliklə də, kolonializmdən sonrakı mərhələ yəni, postkolonializm mərhələsi başlamış olur.

Qeyd edim ki, postkolonial nəzəriyyə və ya postkolonializm müstəmləkəçiliyin mədəni irsini anlamağa çalışan intellektual diskursdur. Nəzəriyyənin mərkəzi F.Fanonun, E.Səidin, H.Bhabhanın, Ç.Spivakın, R.Quanın, D.Çakrabartinin artıq klassik əsərləridir ki, onların əsasında 1980-ci illərdən başlayaraq postkolonial tədqiqatlar formalaşdı.

Postkolonial tədqiqatlarda çox önəmli yer tutan martinikalı filosof Frans Fenon "Qara dəri, ağ maska" (1952) [3], "Yer üzünün bədbəxtləri"(1961) [2] adlı əsərlərində qeyd edir ki, kolonializmin tamamən aradan qalxması üçün tək siyasi müstəqillik kifayət emir, çünki, ərazilər, torpaqlarla birlikdə kimliklər, mədəniyyətlər də müstəmləkələşdirilblər.

Bu gün ABŞ, Fransa, İngiltərə dünyanın bir çox fərqli bölgələrində müstəmləkələri olmasa da, hərbi bazaları, kapitalizm münasibətləri, iqtisadi tor vasitəsilə neokolonial əlaqələr qurmuşdur. Beləliklə də postkolonializm imperilaizmin mirasıdır. Bitməyən bir imperializm sistemidir.

E.Səid "Orientalizm". Fələstinli, amerikalı ədəbi tənqidçi, Kolumbiya Universitetinin professoru Edvard Səidin dünyanın 36 dilinə tərcümə edilmiş "Orientalizm" əsəri postkolonializmin əsas tədqiqat obyektlərindən biridir. Ərəb əsilli xristian bir ailənin uşağı olaraq dünyaya gələn, ingilisdilli Qərb məktəblərində təhsilini tamamlayan və ABŞ-da elmi həyata daxil olan Edvard Səid bu xüsusiyyətlərinə görə özünü nə bütövlüklə ərəb, nə də qərbli olaraq görmürdü. Hətta avtobioqrafiyasında özünü "yersiz, yurdsuz" deyə təsvir edir. XIX əsrdə orientalizm Şərqi öyrənən elm sahəsi idisə, E.Səiddən sonra postkolonializmin, müstəmləkəçilik tarixinin öyrənilməsində mühüm yer tutdu. E.Səidə görə Orientalizm Şərq haqqında elmdir, Şərqin Qərb tərəfindən necə təmsil edildiyi üzərində dayanır.

Orientalizm təqribən özünü mədəni və siyasi cəhətdən üstün görən Qərbin Şərq olaraq təyin etdiyi şeylər haqqında danışmasıdır (4; 121) və o, müstəmləkəçiliklə daha çox gözə çarpır. Orientalizm XIV əsrin əvvəllərində Şərq dillərini və mədəniyyətlərini öyrənmək üçün ortaya çıxdı və XVIII-XIX əsrlərdə müstəqil tədqiqat sahəsi halına gələn orientalizm və onun yaratdığı şərqiyyətçi biliyi Avropanın Yaxın Şərq və Asiyada müstəmləkəçilik fəaliyyətindən, dolayısıyla iqtisadi və siyasi güc əlaqələrindən ayrı nəzərdən keçirmək mümkün deyil (5; 67).

Biz bunu çox vaxt tərcümələrdə görürük. Hər tərcüməçi tərcümə etdiyi əsərə özündən bir şeylər qatır, yenilik gətirir. Hər tərcümə, əsəri yenidən yazmaqdır əslində. Tarixçi də hər bir tarixi hadisəyə

öz mövqeyindən yanaşır. Demək ki, Qərb Şərqi bir tək təmsil etmir, öz mövqeyini, baxış tərzini də ortaya qoyur.

Beləliklə, əgər orientalizm mədəni tərcümə fəaliyyətidirsə, onun araşdırılması təkcə Şərqin nə olduğu ilə əlaqəli deyil. Qərbin də nə olduğu ilə əlaqəlidir. Şərq Avropanın maddi varlığı ilə mədəniyyətinin bütünləyici bir parçasıdır. Şərqin mədəniyyəti, adətləri, siyasi təşkilatçılığı Qərbi Qərb edən əsas şeylərdən biridir. Orientalizm tək araşdırma fəaliyyəti deyil, həm də bir hegemonluq fəaliyyətidir. E.Səidə görə bu araşdırma fəaliyyətini hegemoniya ilə birgə düşünmək lazımdır. Belə ki, hegemoniya tək hərbi yolla olmur. Bu gün ərəb toplumun postkoloniyal coğrafiyalarını, onların mədəniyyətini, onların bu günkü siyasi və ideoloji mövqeyini öyrənmək istəyiriksə onların müstəmləkəçilik müddətlərini də araşdırmalıyıq. Orientalizm fəaliyyətində kritik kəlmə "yaratmaq"dır – Qərbin Şərqi yaratması. Şərq onsuz da var idi. Burada isə bilgi-iqtidar (güc) anlayışı önə çıxır. Şərqin özü haqda dedikləri ilə Qərbin Şərq haqda dedikləri müqayisə edilərsə Qərbin dedikləri daha önəmli olacaqdır. Ona görə də belə bir nəticə çıxır ki, Şərqi Qərb yaradır. E. Səidə görə Şərqin həm coğrafi, həm də mədəni sərhədlərini də Qərb müəyyən edir. Şərq harda başlayır, harda bitir? Asiya qitəsinin Yaxın və Uzaq Şərq adlandırılmasına kim qərar vermişdir? Şərq hara görə uzaq və ya ortadadır? Bu sualların cavabına baxanda "Qərb" var. Bu, təkcə coğrafi təsnifat deyil, həm də iqtisadiyyat və siyasətdə mərkəzi konstruksiyadır [1, 221].

Bu coğrafiyanın tərkibində müxtəlif mədəniyyətlər, dinlər, inanclar, tarixlər var. Amma onlar ümumiləşdirilir. Qərb və Şərq arasında hökmranlıq-köləlik əlaqəsi vardır. Hökmranlığı yaradan köləlikdir. Beləcə bu iki bölgə bir-birini dəstəkləyir, bir-birini var edir. Qərb və Şərqi bir-birindən fərqli sivilizasiya olduğunu düşünürük. Əslində isə hər iki sivilizasiya bir-birindən bəslənir. Ona görə də Şərqlə Qərb arasında sərhəddi müəyyən etmək çətindir. Müasir dövrdə inteqrasiya miqrasiya prosesləri nəticəsində bu sərhədlər demək olar ki aradan qalxmışdır. Orientalizm isə məhz bu sərhəddə mövcud olan düşüncədir.

Beləliklə bilgi iqtidarın, hökmranlığın bir alətidir. Düşməni nə qədər yaxşı tanısan onu o qədər yaxşı idarə edə bilərsən, onunla daha yaxşı mübarizə apara bilərsən.

"Paradiqma qurucu bir əsər" olaraq dəyərləndirilən Orientalizm Avropanın Şərq ilə bağlı siyasi, mədəni, iqtisadi gəlirlərdən qaynaqlanan, kökü çox qədimlərə gedib çıxan bir araşdırmadır. Təbii ki bu nə orientalizmi ilk tədiqiq, nə də tənqid edən kitabdır. Lakin E. Səid M. Fukonun anlayışların köməyi ilə biliyin obyektiv deyil, siyasi mahiyyətini vurğulayaraq İngiltərə, Fransa və sonralar ABŞ-da inkişaf edən şərqşünaslıq meylləri ilə bu ölkələrin Orta Şərqdəki imperialist maraqları arasında əlaqəni göstərməyə çalışmışdır. Səid bu ənənəni Avropanın daha əhatəli güc və suverenlik strukturlarının səfərbər etdiyi "mədəni gücün həyata keçirilməsi" kimi qiymətləndirir. Səidin yaradıcılığı eyni dövrdə nəşr olunan bir çox digər kitablardan daha dərin deyildi; Lakin onun təsiri onlardan daha geniş və güclü idi. Bunun bəlkə də bir səbəbi o idi ki, "şərqşünaslıq" dühası mahiyyətcə hamımızın bildiyi bir şeyi demiş, amma ona təhsil ocağının legitimliyini əlavə etmişdir.

Edvard Səidin fikrincə, Şərq sadəcə coğrafi olaraq Avropaya bitişik bir torpaq parçası deyil. "Bura həm də Avropanın ən böyük, ən zəngin və ən qədim müstəmləkələrinin yerləşdiyi yer, onun qurduğu sivilizasiyaların və danışdıqları dillərin mənbəyi, mədəni məkanı və ən dərin və ən çox təkrarlanan "başqa" obrazlarından biridir". Şərq həm də "əks bir obraz olaraq" Qərbin özünü qurmasına da kömək etdi.

Kolonial diskurs təhlilinə əsaslanan postkolonial nəzəriyyə 1990-cı illərin əvvəllərindən daha geniş mənada postkolonial tədqiqatlar kimi tanınmağa başladı. Ancaq postkolonializm müzakirələrinin mənbəyi olsa da, Səidin postkolonialist kimi xatırlanmaq istəmədiyini vurğulamaq lazımdır. Yeri gəlmişkən, onunla müsahibədə postkolonializmlə bağlı suala belə cavab verdi: "Mənim buna vaxtım yoxdur. Sualınıza verə biləcəyim cavab budur. Dediklərin nə deməkdir?" Onun cavabı Səidin öz yaradıcılığında tamamilə yeni nizam-intizamın qurulmasına biganəliyinin göstəricisidir. Hətta zaman-zaman Homi Bhabha kimi postkolonialistləri tənqid edir. Səid yenə başqa bir dəfə dedi: "Mən müstəmləkəçiliyin sona çatdığını düşünmürəm. "Nə danışdıqlarını başa düşmürəm" deyəcək [7].

Said israrla müstəmləkəçiliyi tənqid edir. Qərb diskursunun dil, qurumlar, mədəniyyət və ədəbiyyat vasitəsilə Şərq xalqına hakim olduğunu göstərir. Bununla da Qərbin Şərqlə bağlı beyinlərdə yaratmağa çalışdığı obrazları üzə çıxarır. Bu, Qərb diskursunun təkcə üstünlük təşkil etməsi deyil, həm

də romanlar, hekayələr və ya səyahət yazıları vasitəsilə konkret Şərq siması yaratmağa çalışması anlayışının fonunu aydın göstərir. Buna görə də, bilik günahsız deyil, güc prosesləri ilə dərindən bağlıdır. Avropada istehsal olunan və yayılan Şərq haqqında biliklərin güclə nə dərəcədə müşayiət olunduğuna diqqət çəkən bu Fukoldçu düşüncə, Səidin müstəmləkəçilik diskursşünaslığının əsaslarını qoyan Şərqşünaslıq əsərini formalaşdırır.

Bu mənada, Səidə görə, şərqşünaslıq ilk növbədə düşüncə tərzidir.

Postkolonializmin digər elementlərindən biri də irqçilik, gender məsələsidir. Belə ki, Qərb müstəmləkə siyasəti köləlik ilə yaxından əlaqəlidir. Kolonializm və kölə hərəkatının mühüm simalardan olan Aime Sezar "Kolonializm diskursu" adlı əsərində qaradərili olmağın təcrübəsindən bəhs etmişdir. Qaradərili olmağın təcrübəsi Qərb imperializminin müstəmləkəçilik siyasətinin təcrübəsi ilə yaxın əlaqəlidir. C.L.R.James "Qara Yakobinlər" əsərində diqqəti qaradərili kölələrin öz tarixini yaza bilmə qabiliyyətinə çəkmişdir ki, bunun da nəticəsi Haiti inqilabıdır (1791-1804) - ən böyük kölə üsyanıdır ki, onun nəticəsində Haiti Respublikası yarandı. Pan-afrikan hərəkatın qurucularından biri Afrikan-amerikan sosioloq W.E.B. Du Boisdur.

Afrikan-amerikan sosioloq W.E.B. Du Boisun "The Souls of Black Folk" (Qara əhalinin ruhu) əsərinə görə afrikan-amerikanın kimliyini, təcrübəsini anlaya bilmək üçün onun içində oduğu irqçi münasibətlər baxımından dəyərlədirmək lazımdır. Qara dərililərin keçdiyi təcrübə müstəmləkə təcrübəsindən kənar düşünülə bilməz. Duboisə görə bu sosiloji olaraq araşdırıla bilər. Buradakı yenilik isə qaradərililərin tarixin tədqiqat obyektinə çevrilməsidir. Daha əvvəl isə kölələr tarixin tədqiqat obyekti olmamışdır, çünki, qara dərili afrikalı kölələr tarixi, mədəniyyəti olmayan, geriqalmış, mədəniləşdirilməsi lazım olan aktordur. Adını sadaladığım alimlər isə onların bir tarixinin, mədəniyyətinin olduğunu və bunu yaza biləcəklərini qeyd edir.

Du Bois, Afrika düşüncəsində təsiri hələ də davam edən nadir filosoflardandır. Gana müstəqilliyini elan edincə, ilk prezidenti Kvame Nkrumahın dəvəti ilə Ganaya gəlmiş ve onun məsləhətçisi olmuşdur. Kvame Nkrumah Ganalı siyasətçi, Afrika ölkəsi Gananın qurucusu ve ilk dövlət başçısı olmuşdur. Nkrumah, Afrikanın müstəmləkəçiliyə qarşı mübarizə aparan və XX əsrin ən güclü Pan-Afrika liderlərindən biri olmuşdur.

Neokolonyalizm, inkişaf etməkdə olan bir ölkəyə təsir etmək üçün əvvəlki müstəmləkəçiliklə birbaşa hərbi nəzarət və ya dolayı siyasi nəzarət üsulları yerinə kapitalizm, qloballaşma ve mədəni imperializmdən istifadə təcrübəsidir.

Termin ilk dəfə, 1956-cı ildə fransız filosofu Jean-Paul Sartre tərəfindən işlədilib, daha sonra Kvame Nkrumah tərəfindən 1960-cı illərdə müstəmləkəçilikdən müstəqilliklərin qazanan Afrika ölkələri ilə əlaqədar işlənildi [6].

Haiti çevrilişi İtalyan marksist nəzəriyyəçi A.Gramşi (1891-1937) postkolonializmin növbəti əsas təqdiqat obyekti olan "Subaltern studies" anlayışını ortaya qoyur, (Subaltern- hərbi termindir amma burada tabe olan, səsi eşidilməyən, əzilən toplum) subaltern anlayışı elmə daxil edildi ki, bu termin "Üçüncü dünya", sonralar isə "post-kolonial" termininə bərabər tutuldu. Subaltern sözü rus dilinə "угнетенные", Azərbaycan dilinə "məzlum", türk dilinə isə "madun" kimi tərcümə olunur, lakin bir çox tədqiqatçılar bu anlayışı tərcüməsiz qoyurlar, çünki onun xüsusi bir mənası var: səssizlik, öz maraqlarını, tələblərini ifadə edə bilməmək. A.Gramşi bu termin vasitəsilə siyasi səsi olmayan marginal qrupların tabe mövqeyinə istinad etmişdir. Gramşiyə görə kapitalist sistemdə proletariat tək əmək sahəsində istila olunmur, mədəni, siyasi cəhətədən öz kimliyindən uzaqlaşdırılır. S.S. – hind əsilli tarixçilər, ədəbi-tənqidi nəzəriyyəçilərin yaratdığı qrupdur ki, buraya G.Spivak, Dipeş Çakrabarti kimi bir sıra simalar daxildir. Hind-amerikalı alim Gayatri Chakravorty Spivak tədqiqatlarında subalternlərin öyrənilməsi də geniş tutur. Onun "Məzlum danışa bilərmi?"[9] essesi postkolonial nəzəriyyənin əsas mətnlərindən birinə çevrildi. Spivaka görə əsas problem subalternin özünü təmsil etmə haqqından məhrum olmasıdır.

Nəticə. Bəzən dünya siyasətçiləri həm kolonializmə, həm də postkolonializmə haqq qazandırmağa çalışırlar. Nobel mükafatı laureyatı ingilis yazıçısı Redyard Kiplinq ingilis kolonializminin ən fəal müdafiəçisi olmuşdur. Eyni zamanda müasir dövrdə Kiplinqin bu mövqeyini dəstəkləyənlər, müstəmləkəçiliyə haqq qazandıranlar artır. Yəni onların arqumenti ondan ibarətdir ki, inkişaf etmiş müstəmləkəçi dövlət geri qalmış müstəmləkə ölkəsini mədəni, siyasi, iqtisadi baxımdan inkişaf etdirir.

Təbii ki, heç bir formada müstəmləkəçilyə haqq qazandırmaq olmaz. Lakin onu da inkar etmək olaz ki, inkişaf etmiş metropol geri qalmış ölkələrin inkişafına da təsir göstərir. Müstəmləkə ölkələrinin çoxsaylı alimi, yazıçı, ictimai-siyasi xadimi məhz metropol ölkələrdə yaşıyır, fəaliyyət göstərir, dünya elminin zirvəsinə yüksəlirlər. Məsələn, Edavar Səid, Salman Rüşti və s.

Müasir dövrdə dünyada həm metropol ölkələrin müstəmləkə siyasətində ümumiyyətlə irqi-ayrı-seçkilik məsələsində yeni yanaşmalar mövcuddur. Məsələn, ABŞ-ın 44-cü prezidenti qaradərili Barak Obama seçildi. Bu gün ABŞ-ın müdafiə nazirə Lloyd Austin qaradərilidir. Böyük Britaniyanın baş naziri isə əslən hindistanlı Rişi Sunakdır.

ƏDƏBİYYAT

1. Edward W. Said, Sarkiyatcılık: Batı'nın Sark Anlayısları, Cev. Berna Yıldırım, İstanbul, Metis, 2016, ss.416.
2. Fanon F. Yeryüzünün lanetlileri. İngilisceden çeviri Şen Suer. Türkçe ilk Basım Sosyalist Yayınlar, İstanbul, 1994. -317 s.
3. Fanon, F. Siyah Deri Beyaz Maskeler (C. Koytak, Çev.). Encore Yayınları. İstanbul 2020, ss.192.
4. Kontny O. Üçgenin Tabanını Yok Sayan Pythagoras: Oryantalizm ve Ataerkillik Üzerine. Doğu-Batı Dergisi: Oryantalizm I, 3. Baskı, 20, Ankara 2011. s.121-136.
5. Turner B.S. Oryantalizm, Postmodernizm ve Globalizm. Çev. İ Kapaklıkaya, 2. Baskı, İstanbul: Anka Yayınları, 2003. ss. 305-344.
6. Sartre Jean-Paul. Colonialism ve Neocolonialism, 1st Edition Imprint Routledge, London, 2006. Pages -256
7. Robert J. Young, "Edward Said'in Postkolonyal Kararsızlığı", Uluslararası Oryantalizm Sempozyumu, İstanbul Büyükşehir Belediyesi, İstanbul 9-10 Aralık 2006, ss. -64.
8. Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına. URL: https://president.az/az/articles/view/61823 [18.04.2024].
9. Chakravorty G. Spivak. Can the Subaltern Speak? URL: https://abahlali.org/files/Can_the_subaltern_speak.pdf [18.04.2024].

НАРГИЗ НАГИЕВА
доктор философии по политическим наукам,
доцент Бакинского Государственного Университета

ФОРМЫ ВЫРАЖЕНИЯ КОЛОНИАЛИЗМА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

Политический феномен колониализма тщательно исследован в мировой историографии, в этой области написано большое количество монументальных фундаментальных теоретических исследований. Хотя нет необходимости перечислять все эти работы, особого упоминания заслуживают исторические и теоретические работы по колониализму Э.В.Тарле, Виджая Мишры и Боба Ходге. Колониализм как политическое явление имеет долгую историю. Это политическое и экономическое событие существовало в разных уголках мира с древнейших времен, меняя свою форму и содержание в зависимости от времени и места, и продолжает существовать до сегодняшнего дня. На Древнем Востоке, в античности, в Средние века, в эпоху Возрождения в Европе колониализм имел в известном смысле простой (примитивный) характер и лишь с начала XVII века почти стал официальной политикой Западного мира.

Ключевые слова: постколониализм, колониализм, Запад, модернизм, ориентализм, Эдвард Саид.

NARGIZ NAGIYEVA
Doctor of Philosophy in Political Science,
Associate professor of Baku State University

EXPRESSION FORMS OF COLONIALISM IN MODERN CONDITIONS

The political phenomenon of colonialism has been thoroughly investigated in world historiography, and a large number of monumental, fundamental theoretical research works have been written in this field. Although it is not necessary to list all of these works, historical and theoretical works on

colonialism by E.V.Tarle, Vijay Mishra and Bob Hodge deserve special mention. Colonialism as a political phenomenon has a long history. This political and economic event has existed in different areas of the world since ancient times, changing its form and content according to time and place, and continues to exist until today. In the Ancient East, in antiquity, the Middle Ages, and the Renaissance in Europe, colonialism had a simple (primitive) character in a certain sense, and only from the beginning of the 17th century, it almost became the official policy of the Western world.

Keywords: postcolonialism, colonialism, West, modernism, orientalism, Edward Said.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d.Qurban Məmmədov, s.e.d. Adil Mirabdullayev.